*Biz hesab edirik ki, məsələ həll olunub, Ermənistan və Azərbaycan arasında sülh müqaviləsi olmalıdır. Bir-birinin ərazi bütövlüyünün tanınması olmalıdır, sərhədlərin tanınması olmalıdır, delimitasiya işlərinə start verilməlidir.*

*İlham ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*



# Prezident İlham Əliyev Ermənistanı beynəlxalq aləmdə bir daha ifşa etdi

## İşğalçı ölkə, deyəsən, yenidən “palçığa batmaq” istəyir

***Bu gün Ermənistan həqiqətləri barədə istənilən məlumat bu ölkədəki daxili xaos və qeyri-sabitliyin daha da dərinləşdiyindən xəbər verir. Prezident İlham Əliyevin BMT Baş Assambleyasının 76-cı sessiyasının dövlət və hökumət başçıları səviyyəsində keçirilən illik ümumi müzakirələrdəki çıxışında, həmçinin Rusiyanın nüfuzlu “Nasionalnaya oborona” jurnalının baş redaktoru, tanınmış hərbi ekspert İqor Korotçenkoya, Türkiyənin Anadolu Agentliyinə və Fransanın “France-24” televiziya kanalına müsahibələrində də Ermənistan bir daha ifşa olundu. Dövlətimizin başçısı dedi ki, artıq Cənubi Qafqazda və Qarabağda yeni reallıqlar yaranıb. Ermənistan və beynəlxalq təşkilatlar bu reallıqları qəbul etməlidirlər. İrəvanın yeganə çıxış yolu sülh müqailəsi ilə razılaşmaqdır.***

Dövlətimizin başçısı bu il oktyabrın 4- də Tərtər rayonunun Suqovuşan qəsəbəsində ictmaiyyət nümayəndələri ilə görüşü zamanı bir daha Ermənistanın revanşist qüvvələrinə ciddi xəbərdarlıq etdi: “Bütün Ermənistanda onun kimilərə, bütün revanşist hisslərlə yaşayanlara müraciət edirəm: Ağlınızı yığın başınıza. Dəmir yumruq buradadır, heç yerə getməyib, yerindədir. Bizi əsəbiləşdirməyin, özünüzü yaxşı aparın. Özünüzü yaxşı aparsanız, onda rahat yaşaya bilərsiniz. Yox, əgər bir daha bizə qarşı hər hansı bir təxribat, bəyanat, hərəkət olarsa, heç kimə baxmadan başınızı əzəcəyik. Heç kim də sizi müdafiə edə bilməz”.

Azərbaycanın Ermənistan və havadarları üzərindəki tarixi qələbəsi Prezident İlham Əliyevin diplomatik və ordu quruculuğu sahələrində düzgün müəyyənləşdirilmiş siyasətinin nəticəsidir. Bu illər ərzində dövlətimizin başçısı tərəfindən münaqişənin həlli ilə bağlı zəngin hüquqi baza formalaşdırıldı, tarixi həqiqətlər və real vəziyyət dünya ictimaiyyətinə çatdırıldı. Lakin dünyada baş alıb gedən ikili standartlar, islamofobiya və digər beynəlxalq hüquq pozuntuları Ermənistanı getdikcə daha da quduzlaşdırdı. Bütün bunlara baxmayaraq, Azərbaycan Prezidentinin düşünülmüş xarici siyasəti nəticəsində ölkəmiz Ermənistanın və havadarlarının yaratdığı mifləri darmadağın etdi, informasiya müharibəsində tam üstünlük qazandı.

Azərbaycanın işğal olunmuş ərazilərini rəşadətli ordumuzun gücü ilə azad etməsi regionda tamamilə yeni reallıqlar formalaşdırıb. Bu reallıqların əsas prioriteti respublikamızın ərazi bütövlüyünü təmin etməsi və Ermənistanın Dağlıq Qarabağın statusu ilə bağlı bütün planlarının üstündən xətt çəkməsidir. Artıq “Dağlıq Qarabağ” ifadəsi yoxdur. Azərbaycan Ordusu Ermənistanı diz çökdürməklə separatçı rejimlərə və işğal siyasətinə necə son qoyulmasını dünya ictimaiyyətinə nümayiş etdirdi. Ölkə Prezidentinin uğurlu xarici siyasəti sayəsində Ermənistan danışıqlar prosesində nail olmaq istədiklərinin heç birini əldə edə bilmədi. İndi işğalçı ölkənin yalnız bir yolu var: sülh müqaviləsini imzalamaq.

Azərbaycan Ermənistanla sülh müqaviləsi imzalamağa hazırdır. Prezident İlham Əliyev də bu təklifi dəfələrlə irəli sürüb. Ancaq Ermənistan müxtəlif vasitələrlə sülh müqaviləsindən yayınır və yenidən silahlanır, sərhədyanı ərazilərdə atəşkəs rejimini pozur, yeni təxribatlar törətməyə cəhd edir. İşğalçılığı dövlət siyasətinin əsasına çevirmiş Ermənistan üçün, təbii ki, bu seçim növbəti tarixi səhvdir.

Dövlətimizin başçısı bildirib ki, sülh müqaviləsini imzalamaq qalib ölkənin güclü, müzəffər xalqın təklifidir: “Əgər buna Ermənistanda mənfi reaksiya varsa, bunu da özləri bilərlər. Amma, yenə də deyirəm, yenə də peşman olacaqlar. Biz isə bundan sonra ancaq və ancaq irəli gedəcəyik”.

Görünür, Ermənistanda baş qaldırmış revanşistlər xarici havadarlarına ümid edərək, hələ də “bəlkə də qaytardılar” ümidi ilə yaşayırlar. Ancaq, nədənsə, Prezident İlham Əliyevin qəti mövqeyini unudurlar: “Əgər “Dağlıq Qarabağ”ın statusundan söhbət gedirsə, mən demişəm: Azərbaycan ərazisində Dağlıq Qarabağ adlı ərazi vahidi yoxdur. Ümumiyyətlə, bu söz, ifadə işlənməməlidir. Dağlıq Qarabağ yoxdur, Qarabağ var”.

Dövlətimzin başçısı bu il iyulun 7-də imzaladığı fərmanı da xatırladıb: “Qarabağ iqtisadi zonası yaradıldı, vəssalam! Bütün Qarabağa aid olan rayonlar orada birləşib. Şərqi Zəngəzur iqtisadi zonası yaradılıb. İndi Ermənistanda bu məsələ ilə bağlı isterikaya qapılırlar”.

Ermənistanın siyasəti artıq beynəlxalq ictimaiyyətə də bəllidir. İşğalçıların əsas məqsədi heç vaxt sülh və ya sabitliklə münaqişənin həlli olmayıb. Onların əsas məqsədləri başqa ölkələrin torpaqları hesabına “böyük Ermənistan” yaratmaq olub. İkinci Qarabağ müharibəsindəki acınacaqlı məğlubiyyətdən ibrət götürməyən Ermənistanın yenidən silahlanmasından belə görünür ki, bu ölkə bundan sonra da sülh müqaviləsi ilə razılaşmayacaq. Son vaxtlar sərhədyanı ərazilərdə atəşkəsin pozulması və müxtəlif təxribatlara cəhdlər də bundan xəbər verir. İşğalçılar bununla Cənubi Qafqaz bölgəsinin təhlükəsizliyini yenidən ciddi təhdid altında qoyurlar.

Müşahidələr də təsdiqləyir ki, xaricdəki erməni diasporunun və ermənipərəst qüvvələrin, həmçinin anti-Azərbaycan qüvvələrin dəstəyindən maksimum şəkildə yararlanan Ermənistan yenə də qeyri-şəffaf şəkildə silahlanma prosesini həyata keçirir. Müxtəlif ölkələr üzərindən Ermənistana silah, hərbi texnika, digər hücum və müdafiə təyinatlı məhsulların ötürülməsi prosesinin davam etdirilməsi beynəlxalq hüquq normalarına ziddir. Ermənistanın hazırda gizli yollarla silahlanması və revanşist meyillilərin təxribatlara cəhdləri qoşulduğu sazişə əsasən, onun üçün müəyyənləşdirilmiş kvotanı kobud şəkildə pozur.

Ermənistanın siyasi və hərbi rəhbərliyi dərk etməlidir ki, belə silahlanmanın artıq heç bir əhəmiyyəti yoxdur. Çünki nə qədər silahlansalar da, Azərbaycan Ordusu qarşısında davam gətirə bilməyəcəklər. Hələ məğlubiyyətdən qabaq da Ermənistan silahlanmaya davam edirdi. Hətta bir neçə il əvvəl Almaniyada fəaliyyət göstərən “Bonn International Center for Conversion” təşkilatının hazırladığı “Global Militarisation Index”” məruzəsinə görə, Ermənistan Avropada ən çox silahlanmış dövlətlər sırasında ön yerlərdə idi. Nəticəsi nə oldu? Bu qədər silahlanma ilə Azərbaycan Ordusunun qarşısında cəmi 44 gün davam gətirə bildi. Bundan əvvəl isə bir neçə dəfə məğlubiyyətin dadını hiss etmişdi.

Ölkəmizə qarşı qərəzli mövqe nümayiş etdirən bir sıra beynəlxalq təşkilatın Ermənistana maliyyə yardımı ayıracaqları barədə bəyanat səsləndirmələri, ikili standartların və islamofobiyanın hələ də mövcud olmasından xəbər verir. Əslində isə maliyyə yardımı işğal nəticəsində əraziləri viran qoyulmuş Azərbaycana göstərilməlidir. Pandemiyanın hələ də tüğyan etməsi, qlobal iqlim dəyişiklikləri, “Taliban”ın hərəkətə keçməsi ilə Orta Asiyada münaqişə və xaos riskinin artması, bir sıra ölkədə baş vermiş dövlət çevrilişləri Cənubi Qafqazda da sabitliyin pozulmasından da yan keçə bilməz. Çünki Azərbaycanın inkişafını, tarixi qələbəsini həzm edə bilməyən bir sıra Qərb və Avropa dövlətləri, o cümlədən qərəzli beynəlxalq təşkilatlar Cənubi Qafqazda sabitliyin pozulması üçün dəridən – qabıqdan çıxırlar. Bu yolda Ermənistan bir vasitə kimi istifadə edirlər. Həm bir sıra beynəlxalq təşkilatların, həm də Ermənistanı öz təsiri altında saxlayan dövlətlərin diktəsi ilə Nikol Paşinyan da sələflərinin yolunu davam etdirərək Azərbaycanda yaşayan ermənilərə hüquqi status verilməsi iddiasındadır.

Bu iddialarla yaşayan Ermənistan rəhbərliyi 90-cı illərdə münaqişə başlayarkən, dədə-baba torpaqlarından zorla qovduqları yüz minlərlə azərbaycanlının doğma yurdlarına, Zəngəzura, Göyçəyə qayıtmasına da razı olmalı, onlara status vermək haqqında razılığını bildirməlidir. Ölkəmizin çoxmillətli və çoxkonfessiyalı olması beynəlxalq aləmə də bəllidir. Multikulturalizmin Azərbaycan modelinin dünyada nümunəvi olması təsadüfi deyil. Ona görə də Ermənistan rəhbərliyinin bu iddiası ara qarışdırmaqdan başqa bir şey deyil.

Müharibədə ağır məğlubiyyətə düçar olan, ordusu darmadağın edilən ölkənin rəhbərliyi və kimlərəsə ümid bəsləyən revanşist meyillilər Azərbaycan Ordusunun hansı qüdrətə malik olduğunu unutmamalıdırlar. Yeni müharibə başlarsa, bu dəfə, bütövlükdə Ermənistan dövlətinin varlığı təhlükə altında qala bilər.

***Əliqismət BƏDƏLOV,***
***“Xalq qəzeti”***